*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* ISSN 2224-9257
*Filologiya məsələləri №10, 2025*
*Səh. 392-399*

https://doi.org/10.62837/2025.10.392

**NURLANA MƏMMƏDOVA**
***AMEA Folklor İnstitutu***
***fil.ü.f.d.***
nurlana.mammedova@inbox.ru

# "URAL BATIR" VƏ "KİTABİ-DƏDƏ QORQUD" DASTANLARINDA KOSMOS – XAOS QARŞIDURMASI: QƏHRƏMANLAR VƏ XTONİK VARLIQLAR

**Giriş.** Arxaik elementlərin geniş yer alması ilə seçilən başqırd eposu "Ural Batır" ilə oğuzların "Kitabi-Dədə Qorqud" eposu arasında müəyyən süjet, motiv və obraz bənzərlikləri aydın müşahidə olunur. Baxmayaraq ki, bu dastanlar ayrı-ayrı çoğrafiyada, fərqli zamanlarda və fərqli siyasi-mədəni mühitlərdə formalaşmışdır, onlar ümümtürk epik ənənələri üzərində yarandığından çoxsaylı müştərək elementlərə sahibdirlər. Qəhrəmanla mübarizə edən məxluqların xtonik xarakterinin açıq ifadə olunduğu "Ural Batır"dan fərqli olaraq, "Kitabi-Dədə Qorqud" eposunda qəhrəmanların şər, düşmən qüvvələrə qarşı mübarizəsinə nə qədər sosial və siyasi məna və forma verilsə da, bu ziddiyyətlərin arxa planındakı kosmos-xaos qarşıdurması bir-çox hallarda asan bərpa oluna bilir. Bu xüsusda dastanlar arasında maraqlı analogiya ortaya çıxmış olur.

**"Ural Batır" və "Kitabi-Dədə Qorqud" dastanlarında qəhrəmanlar və xtonik varlıqlar.** Başqırd xalq eposu "Ural Batır"ın 1910-cu ildə yazıya alınmış məşhur variantı üç hissədən, cəmi 4576 misradan ibarətdir. Bir çox aspektdən elmi maraq oyadan bu eposun özəyində xeyirlə şəri təcəssüm etdirən mifik obrazların mübarizəsindən bəhs edən arxaik mif dayanır (5, c.128). Rus alimi V.Q.Kotov yazır ki, e.ə. III- II minilliyə, tunc dövrünə aid qəhrəmanlıq mifi sonralar müəyyən ədəbi forma almış və bu zaman ona əcdad-qəhrəman Uralın Katil xanla mübarizəsindən, göstərdiyi igidliklərdən və eləcə də onun övladlarının fəaliyyətindən bəhs edən hissələr əlavə olunmuşdur. Nəticədə də mif qəhrəmanlıq eposuna çevrilmişdir (5, s.126-129).

Dastanın genezisi haqqında fərqli mülahizələrdən birinin müəllifi L.A.Yamayeva görə isə "Ural Batır" dastanının ilkin epik formalaşma mərhələsi Orta Asiyanın Kuşan hegemonluğu dövrü ilə əlaqələ olmuşdur. Ural obrazında Kuşan sülaləsinin hind-sak qolunun, Şulgen obrazında isə qədim yueci (toxar) qolunun təmsil olunduğunu ehtimal edən L.A.Yamayeva fikirlərini əsaslandırmaq üçün yazır ki, Şulgen obrazının adı toxar dilidə "şulkay" sözü ("sol" anlamındadır) ilə bağlı ola bilər. Müəllifə görə, bu ad Şulgen obrazının semantikasına uyğun gəlir və "Ural Batır"ın tədqiqatçılarından biri, başqırd alimi Z.Əminevin bu adın

semantikasını xtonik dünya ilə əlaqələndirməsi və “sol”, “əyri”, “eybəcər” kimi mənalandırması ilə üst-üstə düşür (12, s.31-43).

Qeyd edık ki, Azərbaycanca şuluq salmaq “nizam-intizamı, sakitliyi pozmaq, nadinclik etmək, cığallıq etmək, ara qarışdırmaq” kimi anlamlar kəsb edir (10) və bu da Şulgen obrazının xaosla bağlı xarakterinə uyğun gəlir. Ona görə də türk epos qəhrəmanının adının etimologiyasını türk dillərində də axtarmaq daha məntiqli olardı.

Digər tərəfdən onun süjetində Yaxın Şərqin hələ Şumer-Akkad mədəniyyətinin epik abidəsi sayılan Gilgameş haqqında dastanla həddən artıq bənzərlik müşahidə edilir. Biz Dünya tufanı haqqında yazımızda qeyd etmişdik ki, bütün Yer üzünü su basması haqqında Mesopotamiya mifinin min illər öncə türk xalqlarının əcdadlarına məlum olmasını isbatlayan bir fakt onun əsas motivlərinin az qala birə-bir başqırd eposunda – “Ural Batır” dastanında yer almasıdır (7, s. 263).

“Ural Batır”da qəhrəmanın xtonik, xaosu təmsil edən varlıqlarla qarşıdurmasının esxatoloji miflə əlaqəli olması və bunun aydın ifadəsi diqqət çəkir. Təbii ki, burada Cəlal Bəydilinin yazdığı kimi “kosmoloji modelin son sərhəddinin işarəsi kimi çıxış edən həmin miflər, əslində, kosmoqonik miflərin dəyişik şəklidir, yəni burada kosmosdan xaosa doğru əks proses baş verir. Lakin yaradılış daimi inkişaf, yenilənmə halında düşünüldüyündən qiyamət öz ardınca həm də təzələnməni gətirən bir dövr olaraq qavranılır (2, s.117.).

“Ural Batır”da Dünya tufanını törədən şər qüvvələrdən biri olan Şülgen tipoloji baxımdan “Dədə Qorqud”dakı Təpəgözə çox yaxındır. “O, şərin təmsilçisidur və Ural Batırın qardaşıdır. Bu dastanlarda Basata, Ural Batıra, Təpəgözə və Şülgenə qan icmək qadağan olunmuşdu. Təpəgöz və Şülgen bu qaydanı pozurlar və ataları onları tənbeh edib evdən qovur. Deməliyəm ki, Ural Batır – Gilqameş parelelliyinin yanına Dəli Domrul - Dummuzi paralelliyini də qoysaq, bəlkə burada qədim Yaxın Şərq xalqları ilə türklərin əcdadlarının hansısa mədəni əlaqələrindən söhbət aça bilərik .

“Kitabi-Dədə Qorqud”un qəhrəmanların mifik obrazlarla mübarizə apardığı qollarda (Qanturalı və Basatla bağlı boylar) bu bənzərlik bəzən detallarda belə (məsələn, Sarı donlu Selcan xatun kimi Katil padışan qızı da atasının qəhrəmanı öldürtdürə biləcəyindən narahatlıq keçirir, hər iki dastanda atalar (Aruz, Yanbirde) qan içməni övadlarına qadağan edir, qəhrəmanlar aslanla bağlıdırlar və b.) özünü biruzə verir. Qan içmək Təpəgöz, Basat, Ural və Şülgen kimi obrazları xtonik mənşəsinə işarə edir və bu baxımından onları birləşdirir. Lakin Ural Batır və Basat inisiasiyadan – dastanda atanın və ya müdrik ağsaqqalın “öyüdvermə”sindən keçərək insan (kosmos) aləminə daxil olurlar.

Azərbaycan folklorunda mifoloji xaosun semantik strukturu və poetikası barədə sanballı tədqiqatlardan birinin müəllifi Səfa Qarayev S.Neklyudov və B.Riftin kimi məşhur rus folklorşünaslarının nəzəri mülahizələrinə dayanaraq yazır ki, Basat “demonik varlıq kimi öz qurbanından, Neklyudovun təbirincə desək, “sorulmuş qan,

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257
Filologiya məsələləri №10, 2025
Səh. 392-399

yaxud həyat enerjisi əldə edir”. Riftinin dediyi kimi, bütün canlı varlıqların fəaliyyəti əsasında daxili enerji və substansiya meydana çıxır” (6, s.171). Buradan da görmək olur ki, Ural-Şulgen, Basat-Təpəgöz qarşıdurmaları əkizlər mifinin epik paradiqmalarıdır. Xatirə Bəşirli yazırdı ki, “Basatla Təpəgözün qarşılaşması birbaşa kosmosla xaosun mübarizəsini əks etdirir. Bu mübarizə birmənalı şəkildə əkizlər mif modelinin strukturuna əsaslanır. Belə ki, Basat və Təpəgöz məna etibarilə bir-birinin əksinə olsalar da, onlar ortaq genetik kökə bağlıdırlar, ilk öncə təbiətdə formalaşmış, sonra alınıb cəmiyyətə gətirilmişlər” (1, s.108).

“Ural Batır” dastanının süjetinin “Basatın Təpəgözü öldürdüyü boy”la oxşarlığı qəhrəmana son övladını demonik, insan qatili və ya adamyeyən şər obrazdan qorumaq üçün xahiş edilməsi motivinin yer almasında da üzə çıxır. “Ural Batır” dastanında, “Kitabi-Dədə Qorqud”dakı Basatla bağlı boyda olduğu kimi, son övladını Katil padşaha qurban verməmək üçün meşədə gizlətmiş qarı Urala xalqın yaşadığı faciəni xəbər verir:

Атаһы өсөн, үҙе өсөн,
Ярандары даны өсөн,
Үҙе тыуған көнө өсөн,
Йыл да бер ҡат Тәңре өсөн
Ҡанлы ҡорбан уҙҙыра.
Бына мин дә — ун бала
Күргән әсә донъяла.
Дүртеһен һайлап алдылар,
Бишеһен һыуға һалдылар.
Ҡартым, йөрәге һыҙлағас,
Туғыҙ бала юғалғас,
Ҡарап тороп түҙмәне,
Нишләрене һиҙмәне:
Йән асыуҙан уҡталып,
Балаларын ҡыҙғанып,
Бер яранға ынтылды,
Бахырҡайым шул көндө,
Күҙ алдында үкһетеп,
Тереләй ергә күмелде.
Кинйә балам ҡалғайны,
Бер яраны килгәйне,
Бахырҡайым шул көндө,
Күҙ алдында үкһетеп,
Тереләй ергә күмелде.
Кинйә балам ҡалғайны,
Бер яраны килгәйне,

Алам үҙен, — тигәйне —
Бала бауыр булғанға,
Алып ҡастым урманға (11).

(Atasının, özünün, yaxınlarının şan-şöhrəti üçün özünə ad günü (döğum günü) keçirərək, ildə bir dəfə Tanrıya insanları qurban verirdi. Mən də dünyada on övladı olan ana idim. Dördünü seçib götürdülər, beşini suya atdılar. Yaşlı ataları doqquz balasını itirəndə buna dözə bilmədi, dərdə tab gətirmədi. Nə etdiyini bilməyərək, öldürüləcəyindən qorxmayaraq padşahın adamlarının üstünə atıldı. Həmin gündə onu didi-diri torpağa gömdülər. Bircə kiçik qız balam qaldı. Onu da almaq istəyirdilər. Ciyərparə balamı alıb meşəyə qaçdım).

"Basat altunlu günlügin tiküb otur ikən gördilər ki, bir xatun kişi gəlür. Gəldi içəri Basata, girdi, salam verdi, ağladı. Aydır:

Avcına sığmayan əlüklü oğlı,
Ərdil təkə buynuzından qatı yaylı,
İç Oğuzda, Daş Oğuzda adı bəllü,
Aruz oğlı xamm Basat, mana mədəd! - dedi.

Basat aydır: "Nə dilərsən?". Qarıcıq aydır: "Yalancı dünya yüzində bir ər qopdı. Yaylamında Oğuz elin qondurmadı. Qara polad uz qılıclar kəsən qılını kəsdirmədi. Qarğu cida oynadanlar ildirəmədi. Qayın oxı atanlar kar qılamadı. Alplar başı Qazana bir zərb urdı. Qardaşı Qaragünə əlində zəbun oldı. Bığı qanlu Bügdüz Əmən əlində zəbun oldı. Ağ saqallu baban Aruza qan qusdurdı. Meydan yüzində qardaşın Qıyan Selcik ödi sındı, can verdi. Qalın Oğuz bəglərin dəxi-kim ini zəbun edüb, kimini şəhid eylədi. Yedi qatla Oğuzı yerindən sürdi. "Kəsim" dedi, kəsdi. Gündə iki adam, beş yüz qoyun istədi. Bunlu qoca ilə Yapağlu qocayı ana xizmətkar verdilər. Dört oğlı olan birin verdi. Üç olan birin verdi. İki olan birin verdi. İki oğlancığım vardı. Birin verdim, biri qaldı. Çevrildi, növbət gerü - mana gəldi. Anı dəxi istərlər. Xanım, mana mədəd!" – dedi" (4, s.127-128).

"Yeddi qat Oğuzun yerindən sürülməsi" Oğuz sosiumu üçün esxatoloji məna daşıyır: bu, Oğuzun bir toplum olaraq ölümə məhkum edilməsidir. Basat ölümü təmsil edən varlığı məhv edərək Oğuz kosmosunu, həyatı yenidən bərpa edir. Eynilə Ural Batır Katil (qatil) adlı hər kəsi öldürən şahı və onun xidmətində olan mifik obrazları yenərək insanlara həyat bəxş edir. Başqa şəkildə ifadə etsək, xalq qəhrəmanlıq eposuna xarakterik şəkildə Ural Batır Katil padşahla döyüşüb onu yenməklə xalqın xilası missiyasını yerinə yetirir. Baxmayaraq ki, "Kitabi-Dədə Qorqud"da Təpəgöz Basatın doğma qardaşı Qıyan Selcuku öldürmüşdür, burada Basatın missiyası Oğuz elini fantastik şər obrazın əlindən xilas etməkdir. Seyfəddin Rzasoyun dediyi kimi "Dastandakı bəylərin göstərdikləri igidliklərin ümumi mənası xilaskarlıqla bağlıdır: onlar bütün hallarda xilaskarlıq, qoruyuculuq (mifoloji planda: himayədarlıq) funksiyasını həyata keçirirlər. Ancaq bu qəhrəmanların içərisində

miqyası etibarilə ən böyük xilaskarlıq Basata məxsusdur. Çünki Basat yeganə qəhrəmandır ki, bütün Oğuz elini məhv olmaqdan xilas edir" (9, s. 48).

Bu xüsusda onu da vurğulamalıqıq ki, "Ural Batır" dastanında qəhrəmana qarşı duran əsas obrazların, demək olar ki, hamısı fantastik, mifik obrazlardır. Bu çərgədə divlər, əjdahalar, ilanlar dayanır. "Kitabi-Dədə Qorqud"da gördüyümüz düşmən tayfa, "yağı", düşmən el, düşmən dövlət və ya ölkə, eləcə də "kafir" yoxdur.

"Ural Batır"ın "Kitabi-Dədə Qorqud"un söhbət açdığımız boyu ilə müayisəsində maraqlı fakt da odur ki, Topqapı oğuznaməsində Təpəgözü öldürən qəhrəman Uralmış adlanır:

"Yeddi yıl Elbürzə səfər qılan,
Qayıb dönən Qıyan Büsat qardaş qanın alan,
İt-Dəpəgözü öldürüp
Qalın Oğuzda ad qoyan Urılmış xan" (3, s. 228).

Təbii ki, Urılmış obrazının Basatla bağlı süjetin digər bir variantında əsas qəhrəman kimi yer alması iki dastanın bir-biri ilə düşünüldüyündən daha sıx bağlı olmasından xəbər verə bilər. Mətnə görə Urılmış xan "yeddi il" Oğuzdan ayrı – "səfərdə" yaşamışdır. Bu baxımdan onun adı "ayrılmış" kimi başa düşülə bilər. Maraq üçün qeyd edək ki, məsələn qədim xəzər dilinin qalığı olan çuvaş dilində ayrılmaq "uyrale" kimi ifadə olunur.

Katil padşahın ildə bir dəfə, doğum günündə ata-anasının ruhuna qurban verməsi və Uralın onunla qarşıdurması isə yenə "Kitabi-Dədə Qorqud" eposunda Qanturalı ilə bağlı süjeti xatırladır: Qurban ediləcək insanlara nəzər yetirən Katil (Qatil) padşahın qızı oradakı gənclər içərisində Uralı bəyənib özü üçün adaxlı seçir. Lakin Qatil padşah qızının yadellini özünə adaxlı seçməsinə qəzəblənir. Toplanan insanları qurban edilməsini, Uralı isə qandallayıb onun hüzuruna gətirilməsini əmr edir. Ural əvvəlcə Qatil padşahın buğasını (öküzünü), sonra "ayı dərisi geyən" dörd nəhəng döyüçüsünü məğlub edir və "şah qızı" ilə evlənir.

Seyfəddin Rzasoy vurğulayır ki, "Kitabi-Dədə Qorqud"un "Dəli Domrul" boyundakı Dəli Domrul və Əzrayıl obrazları hər ikisi Oğuz dünya modelində xaosla bağlı obrazlardır (8, s.218). Bununla belə, Dəli Domrul ölümə qarşı çıxan, ondan qurtulmağa çalışan obraz kimi Ural Batıra tipoloji cəhətdən bənzəyir. Eyni şəkildə, sonda onlar hər ikisi ölümdən qaçmağın mənasızlığını anlayırlar. Digər bənzər motif "ölümdənqaçma" və ya "əbədi həyat" motividir. "Ural Batır" dastanında əbədi həyat axtarışı dastanın süjet xəttunə daxildir: Ural Batır ölümü yenmək üçün səfərə çıxır. Qorqud Ata ilə bağlı əfsanələrdə isə Dədə Qorqudun ölümdən qaçdığı nəql olunur.

Qəhrəmanın yeddi başlı əjdaha ilə döyüşməsi də həm "Ural Batır" dastanında həm də "Kitabi-Dədə Qorqud"da yer alır. "Kitabi-Dədə Qorqud"da Qazan xanın dustaq olub, oğlu Uruz tərəfindən xilas edilməsindən bəhs edən boyda Qazan xanın Yeddi başlı əjdaha ilə vuruşmasına işarə olunur:

Yedi başlu əjdərhaya yetüb vardım.

Heybətindən sol gözüm yaşardı.
Hey gözüm, namərd gözüm, müxənnət gözüm,
Bir yılandan nə var ki, qorxdun! - dedim.
Anda dəxi "ərəm, bəgəm" deyü ögünmədim (4, s.156-157).

Son illərdə üzə çıxmış Türkmənsəhra əlyazmasında Qazanın Yeddi başlı əjdaha ilə döyüşü ətraflı nəql olunur.

**Nəticə.** "Kitabi-Dədə Qorqud"da da müşahidə edilən epizodların, motiv və süjetlərin bu şəkildə "Ural Batır" dastanında yer alması onu göstərir ki, hər iki dastan ümümtürk dastan ənənələrindən qaynaqlanmış və bu xüsusda ümumi olan bir-çox arxaik elementləri də qorumuşlar. Kosmosu təmsil edən güclərin xaosun təmsilçilərinə qarşı mübarizəsi hər iki dastanın arxaik strukturunun əsasını təşkil edir. "Kitabi-Dədə Qorqud"da, konkret halda qəhrəmanların fantastik obrazlarla mübarizəsindən bəhs edən dastanlarda (Qanturalı, Basat, Dəli Domrulla bağlı boylar) bu bənzərlik təkcə obrazların strukturunda deyil, həm də motivlərdə, süjet xəttində, bəzən daha xırda detallarda belə özünü biruzə verir.

## Ədəbiyyat

1. Bəşirli X. Oğuznamə dastanlarında qəhrəmanların tipologiyası, Bakı, Elm və təhsil, 2019, 150 s.
2. Bəydili C. Türk mifoloji sözlüyü. Bakı: Elm, 2003, 418 s.
3. Əsgər Ə. Böyük türkmanlar və türk dastan yaradıcılığı tarixinin Oğuznamə dövrü. Bakı, Sabah, 2024, 408 s.
4. Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. Bakı, "Öndər" nəşriyyatı, 2004, 376 s.
5. Котов В. Урало-алтайская мифологическая основа башкирского эпоса «Урал-батыр» // Известия Алтайского государственного университета. – 2009. – № 4 – 1. – с.126-129.
6. Qarayev S. Mifoloji xaos: strukturu və poetikası. Bakı: Elm və təhsil, 2016, 212 s.
7. Məmmədova N. Şumerdən Naxçıvana Dünya tufanı mifi / Naxçıvan milli-mənəvi dəyərlər kontekstində. Respublika elmi konfransının materialları. Bakı, 2024, s.259-268. https://folklor.az/uploads/research/files/Naxcivan_konf_material1736403616.pdf
8. Rzasoy S. Oğuz mifologiyası.Bakı Nurlan. 2009, 363 s.
9. Rzasoy S. "Kitabi-Dədə Qorqud" eposu: Dastanın Alp Aruz varintının ilk bərpa təçrübəsi. Bakı, Elm və təhsil, 2024, 304 s.
10. Şuluq. https://sozluk.obastan.com
11. Урал-батыр. https://www.rulit.me/books/ural-batyr-nabashkirskom-yazyke-read-353822-8.html

12. Ямаева Л.А. «Урал батыр» – эпос кушанской эпохи // Ватандаш. 2015. № 9. С. 31-44.

***Nurlana Məmmədova***

**“Ural Batır” və “Kitabi-Dədə Qorqud” dastanlarında kosmos – xaos qarşıdurması: qəhrəmanlar və xtonik varlıqlar**

**XÜLASƏ**

Məşhur başqırd eposu “Ural Batır” ilə oğuzların “Kitabi-Dədə Qorqud” eposu arasında süjet, motiv və obraz səviyyəsində müqayisələr müəyyən maraqlı nüansları ortaya çıxarır. “Qaniçmə”, “ölümlə mübarizə” (”ölümdənqaçma”) və ya “əbədi həyat axtarışı”, “qurbanvermə”, “yeddi başlı əjdahanın yenilməsi” və b. motivlərin mövcudluğu, əkizlər mifindən qaynaqlanan obrazların, aşkar şəkildə xaosu təmsil edən çoxsaylı mifik varlıqların hər iki dastanda yer alması və bunların müqayisəli təhlili onların qədim ümümtürk qaynaqları haqqında müəyyən fikirlər söyləməyə əsas verir. “Ural Batır” və “Kitabi-Dədə Qorqud” dastanlarında qəhrəmanlar və xtonik varlıqlar təkcə arxaik semantikasına, tipinə və funksiyasına görə deyil, bəzən adına, təsvirinə, davranış şəklinə görə də eyniyyət təşkil edirlər. “Kitabi-Dədə Qorqud”dakı Basatla bağlı qolun qəhrəmanının adının bu süjetin digər bir variantında (Topqapı oğuznaməsində) Uralmış adlanması da iki dastanın bir-biri ilə düşünüldüyündən daha sıx bağlı olmasından xəbər verir.

***Açar sözlər:*** Ural Batır, Kitabi-Dədə Qorqud, epos, dastan, xtonik varlıqlar, epik qəhrəman, Basat.

***Nurlana Mammadova***

**Space-chaos confrontation in the epics “Ural Batyr” and “The Book of Dede Gorgud”: heroes and chthonic beings**

**Summary**

The comparisons at the level of plot, motif and image between the famous Bashkir epic “Ural Batyr” and the epic of the Oghuzs “The Book of Dede Gorgud” reveal the certain interesting points. The presence of motifs such as “slaughter”, “fight against death” (“escape from death”) or “search for eternal life”, “sacrifice”, “defeat of the seven-headed dragon” and others, the presence of images originating from the myth of twins, numerous mythical creatures that clearly represent chaos in both epics and their comparative analysis gives reason to express certain opinions about their ancient common Turkic sources. In the epics “Ural Batyr” and “The Book of Dede Gorgud” the heroes and chthonic beings form an identity not only according to their archaic semantics, type and function, but sometimes also according to their name, description, form of behavior. The fact that the name of the hero of the part related to Basat in the epic “The Book of Dede Gorgud” is called Uralmish in another version of this plot (in the Oghuzname “Topgapi”) also

mentions that the two epics are more closely connected with each other than one might think.

**Keywords:** Ural Batyr, The Book of Dede Gorgud, epic, epos, chthonic beings, epic hero, Basat

**Нурлана Маммадова**

**Противостояние космоса и хаоса в эпосах «Урал Батыр» и «Книга моего Деда Коркута»: герои и хтонические существа**

**РЕЗЮМЕ**

Сравнительный анализ сюжетов, мотивов и образов в знаменитом башкирском эпосе «Урал Батыр» и огузском эпосе «Книга моего Деда Коркута» выявляет ряд интересных нюансов. Наличие таких мотивов, как «кровопийство», «борьба со смертью» («избежание смерти») или «поиск вечной жизни», «жертвоприношение», «победа над семиглавым драконом» и др., а также наличие образов, восходящих к мифу о близнецах, и многочисленных мифологических существ, явно олицетворяющих хаос, в обоих эпосах позволяет выдвинуть определённые предположения о древних общетюркских истоках этих сюжетов. Герои и хтонические существа в «Урал Батыре» и «Книге моего Деда Коркута» совпадают не только по своей архаической семантике, типологии и функциям, но порой и по именам, описаниям, манере поведения. Примечательно, что в одной из версий сюжета о Басате (в Огузнаме из Топкапы) герой носит имя Уралмыш, что свидетельствует о более тесной связи между двумя эпосами, чем предполагалось ранее.

**Ключевые слова:** «Урал Батыр», «Книга моего Деда Коркута», эпос, дастан, хтонические существа, эпический герой, Басат.

**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, Elçin Abbasov**